## Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı

1. **Quruluşçu rejissor**
   *Bilməlidir:* Rejissor və aktyor ustalığının nəzəriyyəsini və təcrübəsini, müasir rejissor sənətinin əsas prinsiplərini, rejissorun pyes üzərində işi, pyesin bədii xüsusiyyətlərinin təhlili, rejissorun aktyorla iş prinsipi, səhnə və musiqi tərtibatının əsaslarını, klassik və müasir (yerli və xarici) dramaturgiyanı, Azərbaycan Respublikasında və xarici ölkələrdə teatrların iş təcrübəsini.
   *Tələb: Ali ixtisas təhsili*

2. **Musiqi hissə rəhbəri**
   *Bilməlidir:* Dram teatrında musiqi işinin spesifikasını, tamaşada musiqi tərtibatını, orkestr və xor dirijorluğunun nəzəriyyəsini və təcrübəsini, klassik və müasir musiqini, simfonik orkestr, habelə nəfəsli və xalq alətləri üçün instrumentovkanın əsaslarını, Azərbaycan Respublikasının və xarici ölkə teatrlarının musiqi işinin təcrübəsi, vokal-pedaqoji işin təcrübəsi.
   *Tələb: Ali ixtisas təhsili*

3. **Ədəbi dram hissəsinin rəhbəri**
   *Bilməlidir:* Teatrın, musiqinin, baletin, ədəbiyyatın tarixini, dramaturgiyanın əsaslarını, klassik və müasir repertuarı, klassik və müasir ədəbiyyatı, yerli və xarici dramaturgiyanı.
   *Tələb: Ali ixtisas təhsili*

4. **Dram artisti**
   *Bilməlidir:* Teatr sənətinin tarixini, klassik və müasir (yerli və xarici) dramaturgiyanı, aktyor sənətinin nəzəriyyəsini və praktikasını, musiqi təhsilinin və xoreoqrafiyanın əsaslarını, sahnə danışığını və səhnə hərəkətini, təlim və rol üzərində sərbəst iş üsullarını, şer, monoloq, təmsil.
   *Tələb: Ali ixtisas təhsili*

5. **Vokal artisti**
   *Bilməlidir:* Teatr sənətinin tarixini, ölkə daxilində və xarici ölkələrdə musiqiliteatrının klassik və müasir repertuarını, aktyor ustalığının nəzəriyyəsini və təcrübəsini, səhnə danışığı və səhnə hərəkətlərini, xoreoqrafiyanın əsaslarını, məşq üsullarını, partiya və rollar üzərində müstəqil iş metodlarını.
   *Tələb: Ali ixtisas təhsili*

6. **Orkestr artisti**

*Bilməlidir:* Musiqi mədəniyyətinin tarixini və əsas nailiyyətlərini, ölkə daxilində və xarici ölkələrdə musiqili teatrların klassik və müasir repertuarını, ifa etdiyi musiqi aləti üzrə musiqi ədəbiyyatını, musiqi nəzəriyyəsi fənlərinin kompleksini.
*Tələb: Ali ixtisas təhsili*

7. **Dekorçu rəssam**
   *Bilməlidir:* Səhnənin quruluşunu və avadanlığını, teatr-dekor materiallarının texnologiyasını, rənglərin uyğunlaşma qanunlarını və perspektivlərini, müxtəlif tərkibli rənglərin xüsusiyyətlərini və onların hazırlanması qaydalarını, zamazka və rəng astarlarının resepturasını, tonların tərtib edilməsini.
   *Tələb: Ali ixtisas təhsili*

**Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı**

1. **Quruluşçu rejissor.**

   ***Bilməlidir:*** Rejissor və aktyor ustalığının nəzəriyyəsini və təcrübəsini, müasir rejissor sənətinin əsas prinsiplərini, rejissorun pyes üzərində işi, pyesin bədii xüsusiyyətlərinin təhlili, rejissorun aktyorla iş prinispi, səhnə və musiqi tərtibatının əsaslarını klassik və müasir (yerli və xarici) dramaturgiyanı Azərbaycan Respublikasında və xarici ölkələrdə teatrların iş təcrübəsini.

   *Tələb: Ali ixtisas təhsili*

2. **Dram artisti**

   ***Bilməlidir:*** mədəniyyət və incəsənət sahəsində qanunvericiliyi; sənətin tarixini; klassik və müasir dramaturgiyanı, aktyor ustalığının nəzəriyyəsini və praktikasını, musiqi təhsilinin və xoreoqrafiyanın əsaslarını, səhnə danışığını və səhnə hərəkətlərini, təlim və rol üzərində sərbəst iş üsullarını, şer, monoloq, təmsil.

   *Tələb: Ali ixtisas təhsili*